## *Tənha axşamların kölgəsində*




Nazilə Gültacın yaxın günlərdə nəşr edilən "Əllərimdən yağış damır" adlı şeirlər kitabından "Bahar ətri" gəlir, "Yaz axşamı"nın havası, "Vətən xəritəsi", "Könlümün çiçəkləri", "Sevgi duası" ilə bir arada... Birmənalı şəkildə anladır ki, "bu dünya başdan-başa yaz nəfəsilə təmizdir". Anladır ki, "Gerçəklər göylərdəndir - ruhuyla, varlığıyla!". Bir söz istəklisidir ki, "qanadında uzaqlara gedəbil"sin. Ürəyə bahar gəlməyin, çiçəkləməyin yolu burdan keçir. "Hər sabahın gözündə bir günəş güzgülən"diyi anın təəssüratı çövlan edir hər şeirdə. Könül adamının pünhan nəğmələri kimi oxunur. "Əzizlərsən göz yaşımı, öpərsən baxışımı" tapşırması var hər sətrin. "Sən baxmasan solaram" xəbərdarlığı, "Əzilən xəzəllərdən baharın ətri gəlir" müşahidəsi, "Azadlıq - son dayanacağımız" vətəndaşlığı, "Mən də bir ağacam ömür parkında" Nazim Hikmətliyi var kitaba daxil edilən şeirlərin ovqatında. "Ömrümün xoş günləri tənha axşamların kölgəsində əridi", "Nisgillər dəniz oldu" təəssüfü misraların hər anındadır. "Nə oldu ürəyimə oldu" etirafı hər kəsin öz dərdi kimi oxunur. Yığcam, sadə və qibtədoğurası misralardı:

*Qəfil yağış yağa,*
*ürəyim gizlənə*
*bir ürəyin kölgəsində...*

Kölgəsinə ürək qoyulası qəfil leysan misallıdı Nazilə Gültacın "Əllərimdən yağış damır" adlı kitabına daxil etdiyi şeirlərin təəssüratları; ötənləri göz önünə gətirir, yenidən yaşadır, sevgiyə vəsilə olur. Xoşluqla oxunur...

***Sərvaz Hüseynoğlu***

**Ədəbiyyat qəzeti.- 22 yanvar.- 2022- ci il.- S. 27.**